## Şəmsulla Aqayi

# Ayıbdı

Zalım fələk, ömrüm keçdi xəzanla
Barı utan, axı yazdan ayıbdı
Xeyli vaxtdı könlümü yas basıbdı
O toz basan telli sazdan ayıbdı

İnsafınan gəl bölgünən payları
Azca döndər yasa- vaya toyları
Gəl yekəltmə sızqa axan çayları
Dəli Kürdən, xan Arazdan ayıbdı

Rəhmin gəlmir gözdən axan yaşıma
Çıxardısan nadanları qarşıma
Gülüm çaxma yaxşılığın başıma
Kəsdiyimiz çörək-duzdan ayıbdı

Az yekə cır mən başına dolanım
Qoy küsməyim quluğunda dayanım
Elə danış yalanına inanım
Əynindəki cırıq bezdən ayıbdı

Diyənmirsən gözəl şeir *Şəmsulla*
Əl çək bizdən, boş dolçanı az salla
Gəl yığışdır get işinə sən Allah
Şairlərdən, incə sözdən ayıbdı